# "Əsrin müqaviləsi"nin imzalanması neft strategiyasının uğurlu başlanğıcıdır

*Elmirzə Adgözəlov:*

## "Əsrin müqaviləsi"nin əhəmiyyətini düzgün qiymətləndirmək üçün ötən 21 il ərzində Azərbaycanın keçdiyi inkişaf yoluna nəzər salmaq kifayətdir







**Azərbaycanın neft strategiyasının uğurla reallaşdırılması ölkənin dinamik sosial-iqtisadi inkişafı üçün möhkəm zəmin yaradır. Azərbaycan özünün zəngin karbohidrogen ehtiyatları hesabına hazırda regionun ən sabit və dinamik inkişaf edən ölkəsinə çevrilib. Uzun illərdir ki, özünün enerji təhlükəsizliyini tam təmin etməyə nail olan Azərbaycan hazırda Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.**

"Azərbaycan tarixinə qızıl hərflərlə yazılan "Əsrin müqaviləsi"nin imzalanmasından 21 il ötür. Ümummilli lider Heydər Əliyev neft strategiyasını müəyyənləşdirməklə Azərbaycanın bugünkü inkişafının, iqtisadi müstəqilliyinin əsasını qoydu. Eyni zamanda, bu müqavilənin imzalanması ilə ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətçi olduğu bir daha təsdiqləndi. Ölkənin artan nüfuzu dünya və Avropa dövlətləri tərəfindən də etiraf olunur. Hazırda Azərbaycan regional çərçivədən kənara çıxaraq daha böyük əməkdaşlıq məkanında öz maraqlarını təmin edir, rolunu artırır. Təbii ki, müstəqil dövlətimizin bütün sahələrdə əldə etdiyi müsbət göstəricilərin təməlində müəllifi ulu öndər Heydər Əliyev olan yeni neft strategiyası və hazırda onun Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi dayanır." Bu sözləri Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Neftqaztikinti" Trestinin baş mühəndis-müdir müavini Elmirzə Adgözəlov "Əsrin müqaviləsi"nin imzalanmasından ötən dövr ərzində ölkəmizin əldə etdiyi uğurlardan danışarkən bildirdi. E.Adgözəlov vurğuladı ki, "Əsrin müqaviləsi"nin ölkəmiz üçün iqtisadi və siyasi əhəmiyyətini görmək, ən əsası düzgün qiymətləndirmək üçün həmin dövrdən ötən 21 il ərzində Azərbaycanın keçdiyi inkişaf yoluna nəzər salmaq kifayətdir: "Ölkəmizin neft sənayesinə böyük həcmli investisiyaların qoyulması və müasir texnologiyaların tətbiqi nəticəsində bu sahədə böyük nailiyyətlər əldə olunub. "Əsrin müqaviləsi" çərçivəsində yaradılmış mühüm infrastruktur obyektləri, dünyanın neftçıxarma sənayesində tətbiq olunan ən son texnologiyalar, unikallığı ilə diqqəti cəlb edən çoxsaylı platformalar, terminallar, sualtı boru xətləri, geniş imkanlara malik ixrac boru kəmərləri və s. Azərbaycanın yeni neft erasının misilsiz nailiyyətləri kimi diqqəti cəlb edir."

"Neftqaztikinti" Trestinin baş mühəndis-müdir müavini eyni zamanda, onu da diqqətə çatdırdı ki, neft və qaz ixracından əldə edilən gəlirlər hesabına Azərbaycanın iqtisadi imkanları xeyli artmış, ölkəmiz bir sıra regional layihələrin təşəbbüskarı və əsas iştirakçısına çevrilmişdir. "Əsrin müqaviləsi"nin uğurla reallaşdırılması ilə əsası qoyulmuş Azərbaycanın yeni neft strategiyası iqtisadiyyatın şaxələndirilməsi, xüsusən də qeyri-neft sektorunun inkişafı üçün də əlverişli imkan yaradıb.

"Əsrin müqaviləsi"nin 20 illiyi münasibətilə Bakıda keçirilən tədbirlərdə iştirak edənlər Cənub Qaz Dəhlizini XXI əsrin tarixi hadisəsi adlandırdılar. Təməlqoyma mərasimində TANAP, TAP-la bağlı ümidverici təklifləri dəstəkləyənlər bildirdilər ki, Cənub Qaz Dəhlizi layihəsi Avropanı qazla təchiz etməyə istiqamətlənsə də, qlobal enerji təhlükəsizliyinin təmin olunmasına önəmli töhfədir" deyən E.Adgözəlov əminliklə bildirdi ki, "Əsrin müqaviləsi"nin imzalanması ilə təməli qoyulan neft strategiyasının bugünkü uğurları Azərbaycanın bu gününə və gələcəyinə inamı qabarıq şəkildə büruzə verir.

Elmirzə Adgözəlov bir faktı da xatırlatdı ki, bu il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda TANAP-ın təməlinin qoyulması bu kontekstdə tarixi hadisə kimi dəyərləndirilməlidir. Bu mötəbər tədbir bir daha etibarlı enerji təchizatçısı kimi Azərbaycanın yalnız Avropa üçün deyil, daha geniş miqyasda əhəmiyyətinin artdığını göstərdi. Azərbaycanın təşəbbüsü və liderliyi ilə Avropanın enerji təminatında yeni mənbənin müəyyənləşdirilməsi və yeni dəhlizin yaradılması tarixi hadisədir.

Trestin baş mühəndisi əlavə etdi ki, "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 21 ilə qısa baxış fonunda bir gerçəklik özünü bir daha təsdiqləyir ki, möhkəm təməl uğurların davamlılığı üçün əsasdır: "Təbii ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, nə BTC və BTƏ neft-qaz kəmərlərindən, nə də Cənub Qaz Dəhlizindən danışmaq mümkün idi. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası Azərbaycanın qarşısında yeni-yeni imkanlar açır, yeni-yeni layihələrin icrasını şərtləndirir."

E.Adgözəlov vurğuladı ki, "Neftqaztikinti" Tresti də neft strategiyasının həyata keçirilməsinə öz töhfələrini verir. "Əsrin müqaviləsi"nin 21 illiyi ərəfəsində SOCAR-ın təsdiq olunmuş tədbirlər proqramında nəzərdə tutulan respublika əhəmiyyətli istehsalat obyektlərində əsaslı tikinti, təmir, quraşdırma və yenidənqurma işləri Trest tərəfindən vaxtında və tam həcmdə yerinə yetirilib. SOCAR tərəfindən işlənməkdə olan ən böyük ehtiyata və məhsuldarlığa malik "Günəşli" yatağında neft və qaz hasilatının artırılması məqsədilə dərin dəniz özüllərinin genişləndirilməsi və yenidən qurulması, əlavə quyuların qazılması, mövcud texnoloji yığım və nəql sistemlərinin təkmilləşdirilməsi, çıxarılan neftin və qazın itkisiz sahilə nəqli üçün etibarlı sistemin qurulması işləri "Neftqaztikinti" Trestinə həvalə olunub və bu işdə böyük istehsal göstəriciləri əldə edilib.

Hazırda isə Trest tərəfindən "Azneft" İB-nin "28 May" NQÇİ-nin ""Günəşli" yatağında 20 istismar quyusunun qazılması üçün 7 saylı DDÖ-nün tikintisi", "Neft Daşları" NQÇİ-nin ""Neft Daşları" yatağında 14 ədəd quyunun qazılması üçün 1541A saylı meydançanın tikintisi", Abşeron NQÇİ-nin ""Qərbi Abşeron" yatağında 10 ədəd istismar quyusunun qazılması üçün 10 saylı SDÖ-nün tikintisi", N.Nərimanov adına NQÇİ-nin "410 saylı EYM-dən 423 saylı EYM-ə qədər əvəzedici esatakada sahəsinin tikintisi", Qaz Anbarlarının İstismarı İdarəsinin "Qaradağ Yeraltı Qazsaxlama Anbarında yeni qazpaylama məntəqəsinin genişləndirilməsi", "Qalmaz Yeraltı Qazsaxlama Anbarının yenidən qurulması (VI və VII buraxılış kompleksi)", "SOCAR-Ümid" MMC-nin "Ümid" yatağı 1 saylı SDÖ-də avtomatlaşdırılmış yanğınsöndürmə sisteminin yenidən qurulması və s. bu kimi onlarla obyektlərdə işlər uğurla davam etdirilir.

Elmirzə Adgözəlov sonda onu da bildirdi ki, ümumdövlət qaz proqramının kompleks şəkildə inkişaf etdirilməsinə və regionların qaz təsərrüfatı infrastrukturunun müasir standartların tələblərinə uyğun təşkil olunmasına dair ölkə Prezidenti cənab İlham Əliyevin məlum Sərəncamına əsasən, bir çox dövlət əhəmiyyətli obyektlərdə SOCAR-ın "Neftqaztikinti" Tresti tərəfindən neft-qaz boru kəmərlərinin yenidən qurulması işləri uğurla davam etdirilir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***